

# GÖY QURŞAĞI UŞAQ JURNALI

1(49)

YANVAR-FEVRAL

2015

# MƏNIM RƏNG DÜNYAM



Abbaszadə İlkin



Kərimova Arifə



Quliyeva Müjgan



Mikayılov Rauf



Ağamirova Əzizə

# Kosa, Keçəl və keçi

Kosa keçini kola bağladı
Keçi Kosadan küsüb ağladı.
Kosa keçini kəndirdən açdı
Keçi körpünü keçib qaçdı.
Kosa kəhərə minib getdi
Keçəl köhlənə minib getdi.
Keçəl qovdu, Kosa qovdu
Keçi kolluqda gözdən itdi.
Keçəllə Kosa kolluğa girdi
Keçi onlara kələk gəldi.
Kolluqda kiçik küçük vardı
Kirpi vardı, kəklik vardı.
Kəkilli bir sərçə vardı
Küpə içində külçə vardı.
Kəlçə vardı, iki yekə köpək vardı
Kəlçə yeməyə kəpək vardı.
Keçi kolluğa girdi axı
Keçəl keçini gördü axı.
Keçəllə Kosa kəlləleşdi
Keçəl dedi: - Bu nə işdi?!
Kosa dedi: - Bu nə işdi?!
Kol, nə də kolluq yoxuydu
İşə bir bax, bu yuxuydu.

**Sevinc Nuruqızı**



# XEYİRXAH ŞAHZADƏ QIZ

*Biri vardı, biri yoxdu. Nağıllar ölkəsində çox gözəl, ağıllı və xeyirxah bir şahzadə qız vardı. Bu şahzadə qız hər zaman köməyə ehtiyacı olan insanlara yardım edərdi.*

*...Qarşıdan Novruz bayramı gəlirdi. Şahzadə qız bayram sevincini ölkəsindəki insanlarla paylaşmağı çox sevirdi. Bir gün o qərara gəldi ki, bayramda daha böyük bir yaxşılıq etsin. Şahzadə qız saray xidmətçilərinə çoxlu noğul və şokolad aldırdı. Saray aşpazına isə tapşırdı ki, bayrama şirin qoğal, paxlava və iri bir bayram tortu bişirsin, şəkərbura xəmiri hazırlasın. Şirin qoğal, paxlava və tort bişib hazır oldu, şəkərbura xəmiri gəldi. Bircə tortun üzərini bəzəmək qaldı. Şahzadə qız aşpazı saray bağından bir səbət nərgizgülü yığıb gətirməyə göndərdi. Aşpaz ucsuz-bucaqsız bağda nərgizgülü axtarmağa getdi. Əslində bu, şahzadənin aşpazı mətbəxdən uzaqlaşdırmaq üçün kələyi idi. Fürsətdən istifadə edən Şahzadə qız qolunu çırmalayıb mətbəxə keçdi. Masanın üzərinə saray xəzinəsindən götürdüyü rəngarəng, qiymətli daş-qaşlarla dolu zərxaralı kisə qoydu. Ətirli şəkərbura xəmirini kündələdi, yayıb açdı və hərəsinin içinə bir ovuc qiymətli daş-qaş qoyub kənarlarını incə-incə bükdü. Sonra şəkərburaları naxışladı...*

*O, işini tez başa vurdu. Şəkərburaları bişirib qurtaran kimi çoxlu xonça hazırladı. Hər xonçaya şirin qoğal, ləzzətli paxlava, noğul, şokolad, boyalı yumurta və bir ədəd içi daş-qaşla dolu şəkərbura qoydu. Sonra onları gizlətdi. Aşpaz bağdan qayıdıb yığdığı çiçəklərlə tortun üzərini bəzədi.*

*Bayram günü şahzadə qız əynini dəyişib sadə geyindi. Səhər tezdən hamıdan xəbərsiz xonçaları arabaya yükləyib yola çıxdı. Kasıb evlərin qapısına Novruz xonçası qoyub qapını döydü, özü isə gizləndi. Qapını açan ev sahibləri naz-nemətlərlə dolu xonçanı görüb çox sevindilər, amma ətrafa boylanıb heç kəsi görmədilər. Kasıb ailələr şirin nemətlərdən yedilər. Qiymətli daş-qaş içlikli şəkərburanı böləndə isə sevinclərinin həddi-hüdudu yox idi.*

*...Kasıblar o gündən kasıblığın daşını atdılar. İndi onların da gözəl evləri, isti və yaraşıqlı geyimləri, bərəkətli süfrələri vardı... Şahzadə qız da xoşbəxt idi. Çünki onun məmləkətindəki insanlar firavan yaşayırdılar.*

*Elvira Məmmədova*



# İLYAS TAPDIQ 80

*Düz 80 il öncə Gədəbəyin yamyaşıl Əli İsmayıllı kəndində bir oğlan dünyaya gəldi. Sərin bulaqların suyunu içə-içə, yemlikli düzlərin ətrini sinəsinə çəkə-çəkə böyüdü... Və ŞAİR oldu. O bulaqların suyu qədər şirin, o düzlərin ətri qədər təravətli şeirlər yazdı. Uşaqları sevdi. Böyük səmimiyyətlə onlara "Çiçəklərim, güllərim", – dedi. Uşaqlar da ona bağlandı. Bu dostluq illərin dostluğuna çevrildi... İllərin yol yoldaşı oldular... Biz də sevimli şairimizə öz kitablarının adı ilə bir çələng hördük:*

*"Şeir sevən balalar"*
*"Nağıllı ağaclar"a,*
*Çıxıb nağıl dərdilər.*
*Nağılı dinləməyə,*
*"Köşək", "Xumar" gəldilər.*
*Sonra "Bulaq başında,"*
*"Meşənin mahnısı"nı,*
*Eşidib dincəldilər.*
*Tütəkdə nəğmə çaldı,*
*"Kəndimizin çobanı".*

*Bu nəğmə sevindirdi,*
*Şən "Xoruz və siçan"ı,*
*Həm də "Qorxaq dovşan"ı.*
*Budur, "Çimnaz oynayır,"*
*"Təpələr" yamyaşıldır.*
*Təpənin o üzündə,*
*"Şıltaq günəş" işıldar.*
*"Bir evim var", yanında,*
*"Çiçəklərim, güllərim".*
*Bax, bu kitablardadır,*
*Ən əziz şeirlərim.*

**80 yaşınız mübarək, İlyas Tapdıq!**

*İndi bir xəbər də verəcəm, deyəcəksiniz ki, İncəhörümün xəbərləri qurtarmır. Bu dəfəki xəbərim olduqca maraqlıdır. Dekabrın 17-də uşaq yazıçısı İlyas Tapdığın anadan olmasının 80 illiyi münasibətilə F.Köçərli adına Respublika Uşaq Kitabxanası "Nağıllı ağacın bağbanı" adlı tədbir keçirdi. Məqsəd uşaqları müasir uşaq ədəbiyyatımızın Marşakı hesab edilən İlyas Tapdıq yaradıcılığı ilə tanış etmək idi.*







*Tədbiri kitabxananın direktoru Şəhla xanım açaraq bildirdi ki, İlyas Tapdığın yaradıcılığı folklordan qidalanır. Onun yaradıcılığı folklordan qidalanır. Onun Azərbaycan dilində 30-a yaxın şeir və tərcümə, rus dilində isə 9 şeir kitabı işıq üzü görüb. Elə ilk şeirlərindən o, ənənəvi şeirə, saz-söz dünyasına bağlılığı ilə diqqəti cəlb etmiş, şeirlərində Azərbaycan təbiətinin gözəlliklərini, onun şanlı tarixi keçmişini, qəhrəman oğullarını, söz-sənət dahilərini, müasiri olduğu insanları qələmə almışdır.*







*Sonra Binəqədi rayonundakı 240 saylı məktəbin I sinif şagirdləri şairin şeirləri əsasında hazırlanmış kompozisiya ilə çıxış etdilər. Yubilyara uşaqların rəqs və rəsm hədiyyələri də oldu. Tədbir iştirakçıları kitab sərgisi ilə tanış odular, şairin qələm dostlarının çıxışlarını dinlədilər. Uşaq yazıçısı Sevinc Nuruqızı İlyas Tapdığı Azərbaycan uşaq ədəbiyyatının zərli, naxışlı yazıçısı adlandırdı. Digər uşaq yazıçıları da İlyas Tapdıq haqqında maraqlı söhbətləri ilə yadda qaldılar. Sonda yubilyarla xatirə şəkli çəkdirildi.*





Yəqin кi, sən göy qurşağını çox sevirsən. Elə mən də. Ona görə də sevimli jurnalımızın adını ”Göy qurşağı” qoymuşuq. Həmişə dostum İncəhörüm ilə yağışdan sonra səmaya baxırıq. Bir də görürüк кi, göy qurşağı gəldi...

Sən deмə, göy qurşağı təкcə yağışdan sonra deyil, həm də ondan əvvəl görünə bilərmiş. Göy qurşağının çıxmasına səbəb isə işığın sınmasıdır. Günəş şüaları havada olan damcıların içindən кeçəndə sınır. Hər damcı müxtəlif rənglərin işığını əкs etdirir. Və göy qurşağı yaranır. Hətta bir dəfə mən ona aid şeir də yazdım:

Bir damcının içindən
Keçdi ağappaq işıq.
Yeddi rəngə çaldı o
Oldu Göyə yaraşıq.

O çəkdiyi körpünün
Hər qatı bir rəng oldu.
Bir ağ işıq şüası
Necə rəngbərəng oldu.

Göydə yeddi gözəlin
Yaylığı düşdü qaldı.
Yaylıqlar bir-birinə
Baxın bitişdi qaldı.

Hamısı da dayandı
Göydə ağzıaşağı.
Uşaqlar çığırışdı:
— Çıxıbdır göy qurşağı.

Əslində, biz göy qurşağının yarısını görürüк. Amma dağ zirvəsindən və yaxud təyyarədən baxsaq, yumru olduğunu görəriк. İşıq nə qədər güclü olsa, göy qurşağı o qədər «rəngarəng» olur. Ona görə də günəşin işığından yaranan göy qurşağını hamımız görürüк. Amma bilmirik кi, Ay işığı da göy qurşağı yaradır. Sadəcə, onun işığı zəif olduğu üçün, bu işığın sınmasından yaranan göy qurşağı insan gözü ilə çətin seçilən rənglərdə meydana çıxır.

Bəzən eyni anda alt-alta iкi göy qurşağı müşahidə edilir. Bu zaman altdaкının rəngləri üstdəкinə nisbətən açıq olur. Buna iкincili göy qurşağı deyilir.

Göy qurşağında yeddi rəngi ilк dəfə İsaaк Nyuton ayırıb. Daha doğrusu, o əvvəlcə beş rəngi ayırıb – qırmızı, sarı, yaşıl, mavi və bənövşəyi. Sonra rənglərin sayı ilə musiqi notları arasında uyğunluq yaratmaq üçün daha iкisini əlavə edib. Olub yeddi. Amma bu hamıda belə deyil. Məsələn, bolqarlar göy qurşağında altı rəng görür.



*Insanlıq bu sehirli atmosfer hadisəsinə aid bir çox inanclar və əfsanələr düşünüb:*




**Ənənəyə görə, göy qurşağında yeddi rəng ayrılır: Qırmızı, Narıncı, Sarı, Yaşıl, Mavi, Göy, Bənövşəyi. Rənglərin ardıcıllığını yadda saxlamaq üçün bir çox xalqlarda hər sözü bir rəngin baş hərfi ilə başlayan frazeoloji birləşmələr var. Bizdə də belə birləşmə var: "Qarı nənə səksən yaşında məxməri gülə bənzəyir". Mən də öz variantımı düşündüm. Yadda saxlayaq: "Qırmızı nar sərərsən, yazda mənlə gilələrin bölərsən".**

# XOCALI
## *körpələrin nəğmələrində*
XOCALI




***... Həmişə rənbərəng kostyumlar geyər, şən nəğmələr oxuyardıq... Bu dəfə belə olmadı. Çünki tədbirimiz Xocalı soyqırımına həsr edilmişdi. Yəqin bildiniz də biz kimik? 183 saylı körpələr evi – uşaq bağçasının şən və qayğısız sakinləri. Amma bu dəfə heç də qayğısız deyildik. Əksinə, çox kədərli idik...***







***Günəş və çiçəklər haqqında nəğmələr oxumur, əlvan kəpənəklər kimi uçuşmurduq. Biz Xocalını yad edir, orada düşmən gülləsinin qurbanı olanların xatirəsinə şeirlər deyirdik. Əsgər paltarı geyinmişdik. Bilirsiniz niyə? Ona görə ki, Vətən dara düşəndə onu  mərd əsgərlər qoruyur.***

*Xocalı faciəsinin kadrları nümayiş etdiriləndə ağlamaq istəyirdik... Amma ağlamırdıq. Başa düşürdük ki, ağlamaqla düşmənə qalib gəlmək olmaz. Düşmənə qalib gəlmək üçün sağlam, ağıllı, cəsarətli olmalıyıq... Və Vətəni sevməliyik... Qocalara, qadınlara, körpələrə güllə atanlara yalnız belə qalib gəlmək olar.*






*F. Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşları ilə birlikdə müharibələrə "Yox" dedik. Doğma Azərbaycanımıza və bütün Yer kürəsinə sülh arzuladıq.*











# Şəhid məzarı






Bir ana ağlayır məzar başında
Bu məzar onunçun bir and yeridir.
Qəlbində ən şirin arzular qalmış
Yeganə oğlunun məzar yeridir.

Şəhid oğlu üçün göz yaşı tökür
Qəbrinin üstünə qərənfil düzür.
Göynəyir, sızlayır, içdən ağlayır
Oğlunun qəbrinə qara bağlayır.

Başdaşı üstündə həkk edilmiş söz
Ananın qəlbində qürur doğurur.
O hər şəhid sözünü oxuyan zaman
Oğul itkisinin dərdin unudur.

Məzar üstündəki al qərənfillər
Ananın oğluna yadigarıdır.
Oğuldan anaya qalan təsəlli
Oğlunun yazdığı məktublarıdır.

Bir el itirmişdi, bir də ki, oğul
Xocalı fəryadı qulaqlarında.
İndi su yerinə qan axıdırdı
Xocalı elinin bulaqları da.

*Masazır qəsəbəsi, 3 saylı orta məktəbin*
*9-cu sinif şagirdi Quliyeva Tahirə*

Güclü yağış yağdı... Sonra gün çıxdı. Gül-çiçəyə bürünmüş təpə daha gözəl göründü. Quzular tər otlardan qırpa-qırpa dərəyə endilər. Vüsal da onların dalınca getdi. Dərəyə çathaçatda su şırıltısı eşitdi. Vüsal təəccübləndi: «Gərək ki, bu həndəvərdə bulaq, çeşmə olmasın. Bəs bu şırıltı hardan gəlir?»

Vüsal şırıltı gələn tərəfə qaçdı. Gəlib təpənin günbatan tərəfinə çatdı. Gördü ki, iri bir daşın altından dumduru su pıqqapıqla qaynayır, burula-burula gedib üzüaşağı dərəyə tökülür. Sevincindən quş kimi uçmaq istədi. Elə bil xəzinə tapmışdı. Əlindəki ağacla bulağın gözünü qurdalayıb genəltmək istədi. Su əvvəlcə bulanıb lilləndi, sonra göz yaşıkimi dumduru oldu. Ona elə gəldi ki,bulağın suyu çoxaldı. Yenidən işə girişdi, bulağın gözunu bir az böyütdü.

Sonra təpənin üstünə çıxıb, çayda balıq tutar uşaqları çağırdı:

– Qarğalar, bulaq tapmışam, bura gəlin!

Uşaqların heç biri ona əhəmiyyət vermədi. Balıq tutmaqlarında davam etdilər. Ona elə gəldi ki, uşaqlar onun səsini eşitmədilər. Ona görə də özü onların yanına qaçdı. Təntənə ilə dedi:

–Uşaqlar, təpənin o tərəfində bulaq tapmışam... Gedəyin göstərim.

Uşaqlar, bu dəfə də ona məhəl qoymadılar. Öz işləri ilə məşğul oldular. Arif isə laqeyd-laqeyd dedi:

– Eh, səfeh! O, yağışların suyudur. Bir qədərdən sonra quruyacaq.

Vüsal yaman pərt oldu. Amma pərtliyini üzə vurmadı. Quzuları qabağına qatıb, evlərinə qayıtdı. Əhvalatı nənəsinə danışdı. Günəş nənə istədi desin ki, ay bala, orda bulaq nə gəzir, yanılırsan, amma demədi. Yüz on, bəlkə də yüz iyirmi illik ömür kitabını vərəqlədi. Birdən günəş nənənin sifəti ciddiləşdi, nəsə yadına düşdü:

– Bulaq Güllü təpənin hansı tərəfindən axır? – Quzey tərəfindən.

– Hə, düz deyirsən, bala, – Günəş nənə çox qiymətli bir şey tapmış kimi sevindi. – Altmış, bəlkə də yetmiş il bundam əvvəl orada bulaq vardı. Gecə- gündüz dərəyə axar, şirin bir nəğmə oxuyardı. Şəhərli qonaqların biri gedər, biri gələrdi. Bir gün şəhərdən gələn qonaqlar o bulağın başında bəsdir deyənəcən yeyib-içdilər. Bulağın gözünə nəsə qoyub partlatdılar. Bulağın altı üstünə çevrildi. Nəhəng qayalar yerindən qopub üstünə töküldü.

O gündən bulağın suyu ilim-ilim itdi. Şəhərlilərin də ayağı kənddən kəsildi... Görünür yağış suyundan bulağın suyu çoxalıb. Vurub əvvəlki gözünü açıb. Hə, bulaq uzaq, çox uzaq səfərdən qayıdıb. Gedək onun görüşünə, bala!

Günəş nənə güllü tumanın ətəklərini azacıq qaldırdı, yırğalana-yırğalana bulağın görüşünə getdi. Suyundan ovuclayıb içdikcə içdi. Günəş nənəyə elə gəldi ki, o, altmış, bəlkə də yetmiş il cavanlaşdı. Və o cavanlıq şövqü ilə bulağın zümzüməsinə qulaq asdı.

Bulaq Günəş nənəyə tanış olan, çoxdan unudulan bir nəğmə oxuyurdu, bir hekayət danışırdı, başına gələnləri nağıllayırdı. Bu nəğmə, bu hekayət Güllü təpədən aşağı süzülüb, kəndə, bəlkə bütün dünayaya yayılırdı...

**Bayram İskəndərov**

# BULAQ ZÜMZÜMƏSİ



# QARANLIQLARA GÜNƏŞ NURU

***Dostum, yenə də mənəm – İncəhörüm. Sənə elə maraqlı xəbərlərim var ki. Bunları eşidib özüm sevinmişəm. İstəyirəm ki, səni də sevindirim. Sevincimi dostlarımla paylaşanda özümü xoşbəxt hiss edirəm...***

*Respublikada əlil insanlara dövlət qayğısı ildən-ilə artmaqdadır. Onların təhsil almaları, ixtisaslara yiyələnmələri üçün müxtəlif layihələr həyata keçirilir. Yanvarın 6-da F.Köçərli adına Respublika Uşaq Kitabxanası yeni layihəyə start verdi. Görmə qabiliyyəti zəif və məhdud uşaqlar üçün Dil və İnformasiya Kurslarının açılması ilə əlaqədar kitabxanaçılara Türkiyədən gələn mütəxəssislər Ailə və Sosial Politikalar Bakanlığı İstanbul şəhəri üzrə müdir müavini Xalis Kuralay və İstanbul Böyük Şəhər Bələdiyyəsi Əngəllilər müdirliyində kompüter proqramları üzrə mütəxəssis Yavuz bəy tərəfindən treninqlər başladı. Məqsəd kitabxanadan istifadə edən əlil uşaqlara düzgün yanaşmaq, psixoloji yardım göstərmək, onların cəmiyyətə inteqrasiyasına kömək etməkdir. Məşğələlərdə əlil insanlarla rəftar, kompüterdən istifadə qaydaları, həmçinin Brayl şriftləri ilə yazma və oxuma dərsləri keçirilir. Bu kursların köməyi ilə istifadəçilər Azərbaycan, rus və ingilis dillərində olan istənilən kitabın kompüterin yaddaşına köçürülüb oxunması, səslənməsi, dinlənilməsi bacarığına malik olacaqlar. Eyni zamanda, musiqiyə qulaq asmaq, internetdən istifadə etmək, məktublaşmaq, 100 min səhifəlik materialı yaddaşda saxlamaq, surətini çıxarmaq, SMS göndərmək bacarıqları əldə edəcəklər.*



*Daha bir şad xəbər... Şağan qəsəbəsində yerləşən 3 saylı fiziki və əqli qüsurlu uşaqlar üçün internat evində kitabxana açıldı. Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşları da kitabxananın açılışında iştirak etdi və internata 200-dən çox kitab, "Göy qurşağı" jurnalı, oyuncaqlar hədiyyə apardılar. Tədbirdə Ailə və Sosial Politikalar Bakanlığı İstanbul şəhəri üzrə müdir müavini Xalis Kuralay da iştirak etdi.*

*Mən də orda idim... Biz internat evi ilə tanış olduq.*

*Uşaqlarda zəruri fiziki qabiliyyət və vərdişlər formalaşdırmaq üçün bərpa kabinələrinin, fitri istedad və bacarıqların, əmək vərdişlərinin inkişafına xidmət edən dərnəklərin işi ilə tanış olduq. Bir daha əmin olduq ki, açılmış yeni kitabxanaya fiziki və əqli qüsurlu dostlarımızın böyük ehtiyacı var.*





*F.Köçərli adına Respublika Uşaq Kitabxanasında 2015-ci il yanvarın 6-da başlayan Görmə qabiliyyəti zəif və məhdud uşaqlar üçün Dil və İnformasiya Kurslarının keçirilməsi ilə əlaqədar treninq məşğələlərinin başa çatması ilə əlaqədar tədbir keçirildi. Tədbirdə Türkiyə İş Birliyi və Koordinasiya Alyansının Bakı ofisinin təmsilçisi Mustafa Saleh, layihənin rəhbəri Gənc Ana və Uşaqların Maarifləndirilməsi İctimai Birliyinin sədri Nigar Aslanova, Ailə və Sosial Politikalar Bakanlığı İstanbul şəhəri üzrə müdir müavini Halis Kuralay və Yavuz Algül, Millət vəkili Məlahət İbrahimqızı iştirak edirdi.*
*Tədbiri giriş sözü ilə F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru Şəhla Qəmbərova açaraq ilk dəfə olaraq görmə qabiliyyəti zəif və məhdud uşaqlar üçün kitabxanada açılan Dil kursları və informasiya mərkəzinin əhəmiyyəti, onun gələcəkdə bölgələrdə davamı, daha da təkmilləşdirilməsi ilə bağlı məlumat verdi. Aparılan məşğələlərə görə qonaqlara öz təşəkkürünü bildirdi.*
*Tədbirdə iştirak edən Millət vəkili Məlahət İbrahim qızı da öz çıxışında bildirdi ki, bu gün F.Köçərli adına Respublika Uşaq Kitabxanasında açılmış informasiya mərkəzi gözdən əlil uşaqların istifadə edə biləcəkləri yeni bir məkandır. Bu layihə İnformasiya mərkəzində görməsi məhdud və zəif olan uşaqların da sağlam uşaqlar kimi informasiya almaq hüququnu reallaşdırdı.*
*Treninq məşğələrinin öyrətmənləri Halis Kuralay və Yavuz Algül də çıxışlarında F.Köçərli adına Respublika Uşaq Kitabxanasında açılacaq belə gözəl mərkəz üçün layihə rəhbərinə, kitabxana əməkdaşlarına öz təşəkkürlərini bildirdilər.*

*Əlil və görmə qabiliyyəti zəif uşaqlara günəş nuru və qəlb dolusu sevinc bəxş etməyə çalışanlara böyük minnətdarlıq hissi ilə...*

***İncəhörüm***



# Mirabel

Astrid Lindgren

*Mən indi sizə başıma gələn ən qeyri-adi hadisə haqqında danışacağam.*

*Bu mənim altı yaşım olanda baş verib. Adım Britta-Kaysadır. Balaca bağçası olan bir evdə yaşayırıq. Heç bir qonşumuz yoxdur. Çünki yaşadığımız balaca ev sonunda şəhər olan uzun bir şosse yolunun kənarında yerləşən yeganə yaşayış məskənidir.*

*Atam bağbandır. O, bazarda tərəvəz və çiçək satır. Amma az pul qazanır. Həmişə nəyi isə almağa pulumuz çatmır. O zaman isə, yəni altı yaşım olanda, çox istəyirdim ki, mənə gəlincik alsınlar.*

*İndi isə mən həyatımda baş verən sirli hadisəni danışa bilərəm.*

*Bir dəfə baharda atamla anam bazara çiçək aparmışdılar. Mən evdə tək qalmışdım. Şər vaxtı idi. Bağa getdim. Qəribə gecə idi. Birdən yolda at arabası göründü. Arabada qəribə balaca bir qoca var idi. Qaçıb həyət qapısını açdım.*

*Araba həyətə girdi. Qoca mənə baxıb gülümsədi:*

*– Qapını açdığın üçün sənə pul verməliyəm. Amma pulum yoxdur. Əvəzində başqa şey verəcəyəm. Əlini uzat.*

*Qəribə balaca qoca ovcuma sarı dən qoydu. Dən qızıl kimi işıq saçırdı.*

*– Dəni bağınızda ək. Hər gün suyunu ver. Əyləncəli cücərti çıxacaq! – qoca dedi. O qamçısını qaldırıb-*



endirdi. Bir saniyə sonra araba elə gözdən itdi ki, izi-tozu da qalmadı.

Mən o saat dirriyə getdim və dəni əkdim. Hər gün dəni sulayıb həyəcanla onun cücərtisini gözləyirdim. Bir səhər yenə də susəpəni götürüb bağa qaçdım. Nə görsəm yaxşıdır? Dəni əkdiyim yerdə qıpqırmızı nə isə qabarmışdı. Günü-gündən bu qırmızı böyüyürdü. Və günlərin bir günü mən onun nə olduğunu başa düşdüm. Bu, qırmızı şlyapa idi. Şlyapa gəlinciyin başında idi. Bu gəlincik bizim dirrikdə bitmişdi!

İşə bax… Səhərlərin birində mənim dirriyimdə bütöv bir gəlincik başı bitmişdi. Gəlincik gün-gündən böyüyürdü. Artıq onun qırmızı paltarı da aydın nəzərə çarpırdı. Gəlincik dizlərinə qədər böyüyəndə mən atamla anamı dirriyə gətirdim ki, ona baxsınlar.

Onlar uzun müddət susdular. Nəhayət, atam dilləndi:

– Mən ömrümdə belə bir şey görməmişəm.

Bir bazar günü dirriyə gələndə gördüm ki, gəlincik daha çox böyüyüb. O, gözlərini açdı və düz üzümə baxdı. Mən onu astaca sığalladım. Birdən gəlincik kökündən qopub yerə düşdü. Başa düşdüm ki, gəlincik artıq yetişib. Mən onu qucağıma alıb evə qaçdım. Çox xoşbəxt idim. Gecə mən gəlinciyimə tikiş maşınının qapağında yer saldım və dedim:

– Gecən xeyirə qalsın, Marqareta!

Bilirsiniz, nə baş verdi? O ağzını açdı və dedi:

– Adım Marqareta deyil. Haradan çıxdı Marqareta?! Adım Mirabeldir.

İşə bir bax! Gəlinciyim dayanmadan danışırdı. Deyirdi ki, ona əsl çarpayı və gecəköynəyi lazımdır, guya mən onun çox xoşuna gəlirəm, istəyir ki, anası olum.

– Anam ol, amma mənə sıyıq yedirtmə, – o xəbərdarlıq etdi, – çünki sıyıq yeməkdən zəhləm gedir.

Hə, Mirabel belə Mirabeldi. Çox şən və qayğısız. Atamla anam otağa girəndə o, hərəkətsiz dayanır, onlar gedəndən sonra isə dəcəllik etməyə, cingiltili səslə danışıb-gülməyə başlayır. Artıq iki ildir Mirabel mənimlədir. Dünyada heç bir balaca qızın belə gəlinciyi yoxdur.  O, blini sevir. Mən balaca oyuncaq tavada hər gün ona blini bişirib yedirdirəm. Hətta bir dəfə barmağımı da dişləyib. Atam ona çarpayı düzəldib. Anam döşəkağı və gecəköynəyi tikib. Mən isə ona çoxlu önlük və paltar tikmişəm.

İstəyirsiniz, mənim ağıllı və gözəl gəlinciyim Mirabeli görəsiz? Onda, uzun şosse yolu ilə gəlin. Yolun kənarındakı yeganə ev bizimdir. Söz verirəm, Mirabeli qucağıma alıb, sizi həyət qapısının önündə qarşılayacağam.



# VİMMERBYU

## ASTRİD LİNDQREN DÜNYASI

### *Liliputlar və nəhənglər arasında*





Astrid Lindqrenin hələ uşaq olarkən dostları və qohumları ilə bir arada yaşadığı, sevindiyi, gəzib-dolaşdığı “Astrid Lindqren dünyası”na hər il on minlərlə ziyarətçi gəlir. Burada yazıçının məşhur romanlarının personajlarına, onların evlərinə, qəsrlərinə rast gəlmək olar. Bu yerdə uşaqlıq xatirələri konkret forma, rəng və ətirlə – xüsusilə dondurma və biyan ətrilə yenilənir.

Körpə qəlblərdən Astrid Lindqrenə doğru gedən “uşaq” cığırını heç vaxt ot basmır. Axı bu istedadlı insan yalnız uşaqlar üçün yazıb-yaratmışdır. O, bunu “Böyüklər üçün yazmaq istəmirəm”, – deyərək bir daha vurğulamışdır.

Bu nağıl parkını rahatca gəzmək üçün sənə ən azı iki gün vaxt lazım olacaq. Yayda bu ətrafda gecələmək üçün yer tapmaq çox çətindir. Vimmerbyudan ən azı 150-170 km cənuba gedib gecələməli olacaqsan. Amma onu deyim ki, Skandinaviyanın ailəvi otellərində uşaqlar ən sevilən qonaqlardır. Səni orada cürbəcür hədiyyələr – rəngli karandaşlar, albomlar, oyuncaqlar və mütləq DONDURMA TALONU gözləyir.

Kefin pozulsa da deməliyəm, parka giriş haqqı çox yüksəkdir. Amma hələ iki yaşın tamam olmayıbsa və yaxud sənin ad günündürsə, keçid havayıdır. Parka giriş zamanı xəritə-proqram götürməyi unutma. 8 hektar ərazidə yerləşən parkın ürəyi Lindqrenin uşaqlıq illərində Vimmerbyuda mövcud olan bir-neçə küçənin surəti olan – Balaça şəhərcikdir. Bu şəhərcikdə kiçik ölçüdə yəni uşaq boyundan azacıq hündür evlər, oturacaqlar, küçə fənərləri, meydanlar, döngələr, dalanlar var. Bütün bunlar səni heyrətə gətirəcək. Başını irəli uzadıb pəncərədən içəri baxsan, heyrətin sərhədini aşacaq. Çünki bu evlərin içində sən sevimli nağıl qəhrəmanlarını görə biləcəksən.



*Elə bir uşaq ola bilməz ki, nağıllar aləminə səyahət etməyi arzulamasın. Sən də arzulamısan, mən də, elə İncəhörümün özü də. İsveç uşaqları bu arzularına çoxdan çatıblar. Bunun üçün onlar yalnız Smoland əyalətinin çənubunda yerləşən Vimmerbyu şəhərciyinə – damda yaşayan Karlson, uzuncorab Peppi, Mirabel kimi nağıl qəhrəmanları yaradan Astrid Lindqrenin doğulduğu məkana gedirlər.*







Ay-ay, əsas məsələni demədim. Sən Karlsonun damdakı evini, Rasmusun sarayını, əsrarəngiz və dəcəl Uzuncorab Peppinin məskəni olan “Toyuq” villasını da görə biləcəksən. Və “Toyuq” villasında bir böyük ləyən əmziyə rast gələndə təəccüblənmə. Ayrılmaq nə qədər çətin olsa da, böyüdüklərini nümayiş etdirmək üçün dünyanın ən müxtəlif ölkələrindən gələn balacalar əmziklərini bu ləyənə qoyub gedirlər. Əlbəttə, əgər cəsarətləri çatsa.

Nə qədər cəld uşaq olsan da, Karlsonun evindən aşağı sürüşkən tunellə sürüşüb düşməyə, sonra saysız-hesabsız dəhlizləri, qapıları, giriş-çıxışları keçməyə, damları və bacaları adlamağa ən azı yarım saat vaxt sərf edəcəksən.



Parkda gəzişənlərin arasında kürəyində uçuş qanadları olan Karlsonu görəndə, əlindəki buterbrodu və keksi tez-tələsik yeməyə çalış, çünki Balacanın vəziyyətinə düşə bilərsən. Taxta çubuğa geydirilmiş xoruz şəkəri, xırç-xırç şirnilər və s. sənin səyahətinin şipşirin yol yoldaşları ola bilərlər. Parkda nə istəsən, alıb yeyə bilərsən, çünki bu qida məhsullarının keyfiyyətinə xüsusi nəzarət var.

Bunu da bil! Park payız-qış mövsümü boyunca işləmir.

Oyun oynamağı sevən Karlsonun dediyi kimi:”Sakitlik, yenə də sakitlik”. Həyəcanlanma. Və heç nəyi gözdən qaçırma. Əgər may ayından noyabradək bu parka getmisənsə, giriş qapısının ağzındakı balaca səhnədə verilən tamaşaları seyr et. Öz boyundan azca hündür evlərə baxandan sonra, nəhənglər üçün yaşayış yerlərinə, boyundan dəfələrlə hündür masalara, kürsülərə, güzgülərə nəzər sal. Və qorxma. Sən liliput deyilsən. Onlar nəhəngdir. Cuppulular və nəhənglər arasında xoş istirahətlər, dostum!

# Ay atlılar, atlılar



**Bu sözləri kim deyib? Əlbəttə, Tıq-tıq xanım. Gölməçəyə düşəndə. Qışqırıb: "Ay atlılar, atlılar. Atları qanadlılar..." Elə-belə deməyib. Bilib ki, çətinliyə düşənə atdan tez köməyə çatan olmaz. At əsrlərlə insanın dostu, sirdaşı, arxası, qolu, qanadı olub.**

- Bu heyvan böyük, açıq və geniş çöllərin sakinidir. O, özünü də, sahibini də təhlükədən sürətli qaçışı ilə xilas edə bilir. «At igidin qardaşıdır» ifadəsi təsadüfən yaranmayıb.

- At çox sadiqdir, özünü və ətrafındakıları qorumağı bacarır. Böyük at ilxılarında başçı at ilxını qorumaq üçün illərlə dərin yuxuya getmir. At narahat olanda ayaq üstə yata bilir. Onun dayaq-hərəkət aparatı buna yol verir. Amma heç bir təhlükə gözləməyən at böyrü üstə rahatca uzanıb yatır. Və nə qədər təəccüblü olsa da, yuxu görür.

- At otyeyən heyvandır. Bir gündə 25 kq-dan 100 kq-a qədər ot yeyə bilər. Bununla yanaşı, arpanı da çox xoşlayır. Kişmiş isə onun ən ləziz yeməyidir. At yaşından asılı olaraq, yayda gündə orta hesabla 30–60 litr, qışda isə bir qədər az – 20–25 litr su içir. Atlar orta hesabla 20–25 il yaşayır. Amma 40–50 yaşlı atlara da rast gəlmək olar. Mançester muzeyində bir at kəlləsi saxlanılır. Məşhur Old Billi ləqəbli bu at nə az, nə də çox, düz 62 il yaşayıb.



- Atın balası 335–340 günə doğulur. Yeni doğulmuş at balasına qulun deyilir, bir qədər böyümüş dişi at balasına isə dayça.

- Sən demə, atların ulu babası heç də at olmayıb. Vəhşi atların nəsli kəsilmiş nümayəndəsi «tarpan» olub.

- Dünyada bir çox məşhur at cinsləri var. Ən hündür at ingilis atı olan şayr, ən kiçik at Argentina atı falabelladır. Ən sürətli atlar cıdır atlarıdır. Bizim fəxrimiz olan Qarabağ atları ən yaxşı atlar siyahısında ön yerlərdədir. 1956-cı ildə İngiltərə kraliçası II Yelizavetaya «Zaman» adlı Qarabağ atı hədiyyə edilərkən, o, böyük sevinclə demişdir: «Bütün daş-qaşların zirvəsində brilyant durduğu kimi, Qarabağ atı da cins atların «brilyantıdır». Çünki Qarabağ atları günəş kimi par-par parıldayır».

- Dünyada «Qarabağ» və «Dilboz» kimi məşhurlaşan atlar Qarabağ cinsləridir. Qədim yunan mənbələrinə görə (Heredot, b.e.ə. V əsr) ilk süvari hərbi hissələrinin yaranması Midiya hökmdarı Kiaksarın (b.e.ə. 328-ci il) adı ilə bağlıdır. Qədim coğrafiyaşünas və tarixçi Strabon (b.e.ə. I əsr) yazır ki, padşahların istifadə etdiyi ən yaxşı və ən gözəl atların vətəni Midiya dövləti olmuşdur.



- Digər yazılı mənbəyə əsasən, Makedoniyalı İsgəndər (b.e.ə. 328) Hindistana səfərə hazırlaşarkən Midiya dövlətinin at ilxılarından öz ordusu üçün at seçməyi Atropata tapşırıb. Təşkil edilən ilk süvari dəstədən birinə, əsasən kürən, qızılı rəngdə olan cins «Qarabağ» atları, ikinci süvari dəstəsinə isə boz, göy-dəmir rəngli cins «Dilboz» atları seçilib.

## YARADICILIQ EMALATXANASI

Ah, necə qəşəngdirlər... Rəngli kağızlardan aplikasiya üsulu ilə hazırlanmış əl işlərini görəndə ilk düşündüyüm bu oldu. Olduqca sadə və rəngarəng. İstədim ki, onları sənə də göstərim. İnanıram ki, bütün bunları, hətta bunlardan da gözəllərini düzəldə biləcəksən. Sadəcə bax, əvvəlcə işləmə texnikasını müəyyənləşdir. Yalnız bundan sonra rəngli kağızları, yapışqanı və altlıq üçün kartonu götür... Və işə başla. Mütləq alınacaq...















**Alındı, eləmi?!**
**Deyirdim axı... İndi düzəltdiyin aplikasiyanı öz yataq otağından və yaxud yazı masanın üstündən asa bilərsən. Dostuna hədiyyə etsən, çox sevinər. Sənə uğurlar...**

# Göbələklər

***Göbələklər bitkidir, yoxsa heyvan? Onlarda həm bitkilərin, həm də heyvanların əlamətləri var. Onlar asanlıqla heyvanları “zombi”yə çevirə, insan beyninə təsir edə bilirlər. Dünyanın ekoloji sistemlərinin heç biri göbələklərsiz mövcud ola bilməz. Hətta bəzi alimlər düşünür ki, göbələklərin şüuru var.***

***Məcburiyyət qarşısında qalıb tədqiqatçılar göbələkləri ayrıca bir SƏLTƏNƏT elan etdilər. Gəlin, biz də bu səltənətin qapılarından içəri girək və oranın sakinlərinə yaxından baxaq…***

***Göbələklər planetdə mövcud olan ilk canlılardır. Onlar Yer kürəsinin bütün kataklizmlərini yaşamış, ekstremal istilik və şüalanmadan salamat çıxa bilmişlər. Onları ŞÜURLU hesab edən alimlər uzunmüddətli tədqiqatlar aparmış və göbələklərin “ağıllı” davranışını başqa heç nə ilə izah edə bilməmişlər. Və yalnız XX əsrin axırında göbələklərin heç də bitki olmadığına qərar vermişlər.***











### *Gözəgörünməz aləm*

*Meşədə yəqin ki, rəngbərəng şlyapalı göbələklərə rast gəlmisiniz. Amma başına son dəbli şlyapa qoymuş bu yaraşıqlı meşə gözəli heç də göbələyin özü deyil. Bu yalnız onun sporlarını yaymaq üçün yerin üstündə olan çıxıntısıdır. Əslində, bu aysberqin görünən hissəsidir. Torpağın altında isə bir göbələyin 35 kilometr məsafəni əhatə edən nazik tellərdən ibarət mitseli adlanan yeraltı hissəsi var. Və bu mitselinin qrafik təsviri İnternet şəbəkəsinin təsviri ilə eynidir.*

### *Qatil göbələklər*

*Megaloponerafoetens fəsiləsindən olan qarışqalar qəribə tale yaşayırlar. Onlar ağacın gövdəsi ilə uzun bir məsafə qət edib yuxarı dırmaşır və yalnız orada başlarını ağacın gövdəsinə çırpıb, kütləvi suisidə (özünəqəsd) imza atırlar. Və yaxud nəmlik və rütubət çox olan yüksəklikdə yaşıl yarpaqları yeməyə başlayırlar. Elə bu vəziyyətdə də ölürlər. Bu zaman onların bədənindəki göbələk öz sporlarını ətrafa yayır. Burda onun çoxalması üçün ideal şərait – nəm və rütubətli mühit var. Qarışqaları bu vəziyyətə salan “qəhrəman” isə Ophiocordycepsunilateralis adlı göbələkdir. Bu göbələyə alimlər “zombi” adı verib. Bu göbələk qarışqanın həzm sisteminə düşən kimi onun beyninə qənim kəsilir. Və qarışqa zombiyə çevrilir. Özünü öldürür.*











***Vikinqlər, şamanlar və göbələk***

*İnsana da təsir edən zombi göbələklər var. Onları yeyən insanı qarabasmalar, panika və daimi qorxu müşayiət edir. Amma bəzən belə göbələklər insanı lazım olduğundan artıq xeyirxah, sakit və xoşbəxt edə bilər.*
*Qarabasma və psixoloji hallar yaradan göbələklərin gücünü qədim şamanlar və vikinqlər yaxşı bilirdilər. Şamanlar bu göbələklərdən müxtəlif ayinlərin keçirilməsində, vikinqlər isə düşmən üzərinə hücümlar zamanı cəsarət əldə etmək üçün istifadə edirdilər.*

***İnqilabçı göbələklər***

*Çox qəribəliklərin müəllifinin göbələk olduğunu insan sonralar başa düşüb. Maya göbələyi və yaxud spirti dünyaya bəxş edən xeyirxah göbələk. Kif göbələyi və yaxud təbabətdə inqilab edən penisillin. Bu göbələk xəstəliktörə-dən bakteriyaları məhv edir. Penisillin göbələyinin 250-dən artıq növü var.*

*Bütün bunları bilməsək də, indi öyrəndik. Bu mehriban, cığal, hökmran, sərt, xeyirxah canlılarla necə münasibət quracağı haqqında hərə özü qərar verməlidir. Çünki bu münasibətdən asılı olaraq onlar yaxşılıq və pislik, xeyir və şər törədə bilərlər.*

# ÇOX OXUSAN









**Xido Van Xeynektn. "Cəsur Riki", "Riki", "Maks idman edir"**

Riki çöldə - çadırda yatmaq istəyir, Rikinin iki uzun qulağı var, amma sağ qulağı sallanır, Maks və onun dostları idmanı sevirlər... Bəs, görəsən bütün bunların axırı necə olacaq? Bunu bilmək üçün sən bu kitabları oxumalısan.







**Mo Uilyems. "Göyərçin küçük saxlamaq istəyir!", "Göyərçini avtobus sürməyə qoyma!"**

Bala Dovşanın camaşırxanada başına gələn qəribə əhvalatlar, küçük saxlamaq və avtobus sürmək istəyən göyərçin haqqında bilmək istəyirsənsə, bu kitabları oxu. Mo Uilyems bu əsərlərinə görə "Kaldekot" mükafatına layiq görülüb.













**Devid Makki. "Elmer", "Elmer və begemotlar", "Elmer və Uilbur", "Elmer və itmiş oyuncaq ayı"**

Yer üzündə bir sürü fil var. Onlar xoşbəxt və eyni rəngdədirlər, təkcə Elmerdən başqa. Hər kəsin sevimlisi alabəzək fil Elmerin begemotlarla, Uilburla, oyuncaq ayı ilə macəraları bu kitablarda yer alıb.

# ÇOX BİLƏRSƏN



**Mo Uilyems.**
**“Mən qonaqlığa dəvət almışam”, “Sənin başında quş var”**

“Mən qonaqlığa dəvət almışam” hekayəsində Piqi ilk dəfə qonaqlığa dəvət alır, “Sənin başında quş var” hekayəsində Cerald dərk edir ki, başında bir dənə quşun olması dünyanın axırı demək deyil. Sonra nə baş verdiyini isə kitabları oxuyanda biləcəksiniz.





















**Mişel Yakubovski.**
**“Sevimli Sevinc” silsiləsindən. “Çimərlikdə məyusluq”, “Oyunpozan”**

Bu kitablarda bütün yayı çimərliyə gedəcəyi günü gözləyən, amma qumun belə isti, suyun belə soyuq, küləyin isə belə güclü olacağını ağlına gətirməyən və məhəllədə keçirilən qonaqlıqda qəribə macəraları olan Sevincin sərgüzəştlərindən danışılır.

**Kristiana Counz.**
**“Mənim ilk klassik hekayəm” silsiləsi. “Rapunzel”**

“Rapunzel” nağılında uzunsaçlı dilbər, Küpəgirən qarı və hündür qaladan ibarət üç əsas element sadə bir sehirin gücü ilə unudulmaz hekayəyə çevrilib.

# MƏNTİQİ SUAL



*1. A və B eyni ölçülü disklərdir. A hərəkəstiz qalır və B diski A diskinin ətrafında tam bir dövrə edir(hər zaman ona toxunaraq). Bu zaman B diski öz oxu ətrafında neçə dövr etmiş olur?*

*a. 1   b. 2   c. 3   d. 6*




**2. Ulduzların hamısını bir-birindən ayırmaq üçün neçə çevrə çəkmək lazımdır?**

**a.6   b. 4   c. 5   d. 3**





**3. Əskərin getdiyi yol**

**40 km məsafəyə yayılmış bir ordu irəli gedərkən, ordunun ən sonunda duran əsgər ən irəlidə gedən komandirə bir söz demək üçün ordunun əvvəlinə qədər gedir, sözünü deyir və geri dönür. Əsgər bu işi görəndə ordu 40 km yol qət etmiş olur. İrəli gedən və geri qayıdan əsgər cəmi nə qədər yol qət etmiş sayılır.**

**4. Lalə, Solmaz, Almaz və Nadir qohumdurlar. Məlumdur ki,**
**1) Lalə Solmazın bacısıdır.**
**2) Solmaz Almazın bacısıdır.**
**3) Almaz Nadirin qız nəvəsidir.**
**Nadir Lalə ilə necə qohumdur?**
**A) atasıdır**
**B) dayısıdır**
**C) əmisidir**
**D) babasıdır**
**E) qardaşıdır**

## *Ötən sayımızdakı məntiqi sualların cavabları:*



**Cavab: 0 və 1 rəqəmləri**
**İzah: Bütün başqa rəqəmlər iki dəfə təkrar olunur.**



**Cavab: A**
**İzah: Bu, yeganə fiqurdur ki, iki qara "xal" l var**

| | | | |
|---|---|---|---|
| B | C | D | A |
| D | A | E | B |
| E | B | C | D |
| C | D | A | E |

**Bu şəkildəki kimi etmək olar:**



# FLAYBORD



Bu, yeni idman növüdür. Su xizəyi idman növü üzrə
Fransa çempionu, su əyləncələrinin kralı hesab edilən Frenki
Zapata tərəfindən düşünülüb. Suyun üzərində havadan asılı
qalmağın həyəcanını yaşamaq istəyənlər üçün əla
hədiyyədir. Həm də təkcə havadan asılı qalmaq deyil, elə
havadaca cürbəcür hərəkətlər etmək, məsələn hoppanmaq,
dalğaların üzəri ilə delfin kimi şütümək, lap elə rəqs etmək
üçün də...

2011- ci ildə Çində keçirilən dünya çempionatında Frenki
Zapatanın bu kəşfi bütün dünyanın heyrətinə səbəb oldu. İlk
flaybordinq çempionatı isə 2012-ci ildə baş tutdu.
Flaybordu snaybord, paraşüt və reaktiv kəmər kimi idman
növlərinin adrenalinli qarışığı adlandırmaq olar. Belə
nəfəskəsən həyəcanı yalnız fantastik filmlərdə yaşamaq olar.
Flaybord qurğusu istənilən güclü hidravlik dövrə
mühərrikinə qoşulur. Bu birləşmə uzun və möhkəm şlank
vasitəsilə həyata keçirilir. Şlank su şırnağını sutullayan
çəkmələrə ötürür. Bu qurğu su üzərində 9 metr hündürlüyə
qalxmaq imkanı yaradır. Flaybordla havada müxtəlif
gimnastika və akrobatika hərəkətləri yerinə yetirmək də olur.

Flaybord qurğusu tam təhlükəsizdir. Nə partlayış, nə də
yanıq təhlükəsi yaradır. Qəza olarsa, başın nə daşa dəyir, nə
də divara. "Brilyant əl" kinofilmində deyilən "Sürüşüb
yıxıldım, ayıldım gips" məsələsi yoxdur. Sadəcə, şarapppp...
və suya düşürsən. Bu qədər. Adrenalın dalınca çöllərə
düşmək lazım deyil. Böyük həyəcan yaşamaq istəyirsənsə,
flaybord qurğusu al və baş vur dənizə. Qalanı qalır sənin
cəsarətinə və flaybordu idarə etmək məharətinə.



# SIÇAN tələsi









Günlərin bir günü siçan ev sahibinin fermada tələ qurduğunu gördü. Çox həyəcanlandı. Qaçıb tez bu haqda toyuğa, qoyuna və inəyə xəbər verdi. Onlar güldülər və bir ağızdan dedilər: “Tələnin  bizə nə dəxli var? Sən öz gününə ağla”.

Aradan bir neçə gün keçdi. Fermerin arvadını inək sağarkən ilan çaldı.  Sivrilib çıxmaq istəyəndə ilan qapının ağzında quraşdırılmış tələyə düşdü. Həkim çağırdılar. Həkim zəhəri təmizləmək üçün qadına toyuq şorbası məsləhət gördü. Arvadının bədənindən zəhəri çıxartmaq üçün fermer toyuğu kəsib, ətindən şorba bişirtdirdi. Bütün kənd camaatı fermerin arvadının yanına gəldi. Xəstəyə baş çəkməyə gələnlər üçün şam yeməyi hazırlamaq lazım olduğunu düşünən fermer qoyunu kəsdi. Gələnlər yeyib-içib getdilər. Axşama yaxın arvadın vəziyyəti pisləşdi. İlan zəhəri artıq onun qanına işləmişdi. Az sonra fermerin arvadı dünyasını dəyişdi. Qadına ehsan vermək üçün kişi inəyi də kəsməli oldu.

Bütün bu baş verənləri siçan öz kiçik yuvasından müşahidə etdi və fikirləşdi:

— Sən bir işə bax. Axı toyuq, qoyun və inək deyirdilər ki, tələnin onlara heç bir dəxli yoxdur...

**Yadda saxla! Heç kim sabah başına nə  gələcəyindən xəbərdar deyil, ona görə də ətrafda baş verənlərə biganə qalma!**

# Hədis

*Gəmi ilə uzaq bir səyahətə çıxmışdım. Birdən hay-küy eşitdim.*

*Dönüb baxanda gördüm ki, meymun bir torbanı qapıb gəminin dor ağacına dırmaşır. Adamlar nə qədər qışqırsalar da, meymun heç nəyə əhəmiyyət vermədən qalxıb ağacın başında oturdu. Sonra torbanın ağzını açdı və oradan bir şey çıxarıb adamların üstünə atdı. Baxdıq ki, qızıl puldur. Meymun həmin şeyin birini də dənizə atdı. Hamımız həyəcanla qışqırdıq ki, meymun qızılı dənizə atır.*

*Meymun da öz işində idi, qızılın birini gəmiyə, birini isə suya atmağa davam edirdi. Bu zaman adamlardan biri uca səslə dedi: "Ay camaat, səs-küy salmayın, bu meymun ağılsız, iradəsiz heyvandır. Amma bu an burada onun əli ilə bir hikmət yaşanır. Mən dərsimi aldım, öz işimi başa düşdüm. Allah-Təala bu meymunun əli ilə mənim malımın halalını haramından ayırır. Meymunun qaçırdığı qızıl torbası mənimdir. Mən uzun illər ərzində süd sataraq o pulları yığmışam, özü də hər zaman haramxorluq etmişəm, südə su qatıb camaata satmışam ki, çox pul qazanım. İndi meymun suyun haqqını suya verir, südün haqqını mənə qaytarır".*



***Azərbaycan Respublikası***
***Ədliyyə Nazirliyində***
***qeydiyyatdan keçib.***

***Qeydiyyat nömrəsi:***
*№ 3926 – 06.11.2014*

*2006-cı ilin noyabrından çıxır.*

***Təşkilati dəstək:***
*Azərbaycan Respublikası*
*Mədəniyyət və Turizm Nazirliyi*

***Təsisçi:***
*F.Köçərli adına Respublika Uşaq Kitabxanası*

***Baş redaktor:*** *Şəhla Qəmbərova*
***Redaktor:*** *Sevinc Nuruqızı*
***Korrektor:*** *İlahə Quliyeva*
***Bədii tərtibat:*** *Gülnar Qurbanova*
***Üz qabığında:*** *Eyvazova Rəhilə*

*Müəlliflik hüququ F.Köçərli adına*
*Respublika Uşaq Kitabxanasına*
*məxsusdur.*

*Xüsusi icazə olmadan jurnalın surətini,*
*elektron variantını çap etmək və*
*yaymaq qanuna ziddir.*

***Ünvan:*** *Bakı AZ1022 S.Vurğun küçəsi – 88*

***Tel:*** *(+99412) 5970851,*

***Faks:*** *(+99412) 5970879.*

*Jurnalımıza abunə olmaq istəyirsinizsə,*
*yuxarıdakı ünvana müraciət edə bilərsiniz.*

*Tiraj 3000*

*«Aspoliqraf LTD»*
*nəşriyyat-poliqrafiya müəssisəsinin*
*mətbəəsində hazır diapozitivlərdən*
*çap olunmuşdur.*



**www.fb.com/clb.az**